BAKER TILLY
AZERBAIJAN LLC

Bridge Plaza, 11th floor
6, Bakikhanov street
AZ1022, Baku
Azerbaijan
Tel: +994 (12) 404 51 52
Fax: +994 (12) 404 51 53

# MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Əmanətlərin Sığortalanması Fondunun" Himayəçilik Şurasına:

***Maliyyə hesabatları haqqında auditor hesabatı***

Biz "Əmanətlərin Sığortalanması Fondunun" ("Fond") 31 dekabr 2008-ci il tarixinə təqdim edilən balans hesabatı və həmin tarixdə tamamlanan il üzrə mənfəət-zərər hesabatı, xalis aktivlərdə baş verən dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti hesabatından, eləcə də əsas uçot prinsiplərinin xülasəsindən və digər izahedici qeydlərin xülasəsindən ibarət olan maliyyə hesabatlarının audit yoxlamasını apardıq.

***Maliyyə hesabatlarının hazırlanması üzrə rəhbərliyin məsuliyyəti***

Rəhbərlik bu maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına ("BMHS") uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə məsuliyyət daşıyır. Bu məsuliyyətə aşağıdakılar aiddir: maliyyə hesabatlarının hazırlanması ilə əlaqədar, saxtakarlıq və ya yanlışlıqdan qaynaqlanan əhəmiyyətli kənarlaşmaların qarşısını almaq məqsədilə daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi; müvafiq mühasibat siyasətinin seçilməsi və tətbiq edilməsi; mövcud şərtlər altında məqbul mühasibat təxminlərinin irəli sürülməsi.

***Auditorun məsuliyyəti***

Bizim məsuliyyətimiz apardığımız audit yoxlamasına əsasən bu maliyyə hesabatlarına dair rəy bildirməkdən ibarətdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartları əsasında aparmışıq. Həmin standartların tələbinə görə, biz etik tələblərə əməl etməli və auditi elə şəkildə planlaşdırmalı və aparmalıyıq ki, maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin mövcud olmamasına kifayət qədər əmin olaq.

Audit yoxlamasına maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair auditor sübutu əldə etmək üçün prosedurların yerinə yetirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhvlər nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor Fondun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə Fond tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, audit yoxlamasına mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot təxminlərinin əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz auditor sübutu rəyimizi bildirmək üçün kifayət qədər əsas verir.

BAKER TILLY

***Rəy***

Bizim rəyimizcə, təqdim edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Fondun 31 dekabr 2008-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

***İzahedici paraqraf***

Diqqətinizə çatdırırıq ki, maliyyə hesabatlarında Qeyd 1-də göstərildiyi kimi, Azərbaycan Respublikasının iqtisadiyyatı faktiki olaraq neftin beynəlxalq bazarlardakı qiymətindən çox asılıdır. Azərbaycan Respublikası, ölkə hüdudlarından kənarda sərbəst dövriyyə qabiliyyətinə malik olmayan valyuta, sərt valyuta nəzarəti, müəyyən qədər yüksək inflyasiya və iqtisadi artım templəri də daxil olmaqla inkişaf etməkdə olan ölkələrə xas bir çox xarakterləri özündə əks etdirir.

"Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, cəlb edildiyi günə Azərbaycan Respublikası Milli Bankının ("ARMB") uçot faiz dərəcəsinin 1.8 mislindən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər Fond tərəfindən qorunmur. 2008-ci ilin ikinci yarısından başlayaraq bu hesabatın imzalanma tarixinədək olan dövrdə ARMB-nın uçot faiz dərəcəsi 15%-dən 3%-ə kimi düşmüşdür. Müvafiq olaraq hal hazırda imzalanma anında illik faiz dərəcəsi 5.4%-dən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilən əmanətlər qorunmayan əmanətlər hesab olunur. Fonda üzv bankların əksəriyyətində əmanət faizlərinin bu dərəcədən yüksək olduğunu nəzərə alaraq və ARMB-nın uçot faiz dərəcəsinə və "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməyəcəyini ehtimal etsək, qarşıdakı dövrlərdə Fondun üzv banklardan topladığı sığorta haqlarının həcmində əhəmiyyətli azalmalar baş verə bilər.

Baker Tilly Azerbaijan

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

## "ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU"

### MƏNFƏƏT VƏ ZƏRƏR HESABATI
### 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2008-ci il tarixində başa çatmış il | 31 dekabr 2007-ci il tarixində başa çatmış 6 ay |
|---|---|---|---|
| **GƏLİRLƏR** | | | |
| Sığorta premiyaları | 7 | 7,494,225 | 3,674,373 |
| Faiz gəlirləri | 8 | 595,249 | 34,049 |
| Digər gəlirlər | | 331 | - |
| **CƏMİ GƏLİRLƏR** | | **8,089,805** | **3,708,422** |
| **XƏRCLƏR** | | | |
| Ümumi və inzibati xərclər | 9 | (492,429) | (135,473) |
| **CƏMİ XƏRCLƏR** | | **(492,429)** | **(135, 473)** |
| **İL ÜZRƏ MƏNFƏƏT** | | **7,597,376** | **3,572,949** |

**Rəhbərlik adından:**

**Azad Cavadov**
**İcraçı direktor**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

**Nərgiz Məmmədova**
**Baş mühasib**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

Əmanətlərin Sığortalanması Fondu * Azərbaycan Respublikası * ƏSF

8-28-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Auditorların müstəqil rəyi 2-ci və 3-cü səhifələrdə verilmişdir.

# "ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU"

## BALANS HESABATI
## 31 DEKABR 2008-Cİ İL TARİXİNƏ
*(Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2008-ci il | 31 dekabr 2007-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| **Cari aktivlər** | | | |
| Pul və pul vəsaitləri | 10 | 1,699,365 | 54,625 |
| Ödəniş tarixinədək saxlanılan investisiya qiymətli kağızları | 11 | 7,746,868 | 1,757,511 |
| Sığorta haqları üzrə debitor borclar | 12 | 1,714,436 | 1,735,970 |
| Digər aktivlər | | 428 | 856 |
| **Cəmi cari aktivlər** | | **11,161,097** | **3,548,962** |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər və qeyri-maddi aktivlər | 13 | 51,252 | 61,402 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **51,252** | **61,402** |
| **CƏMİ AKTİVLƏR** | | **11,212,349** | **3,610,364** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR | | | |
| **Cari öhdəliklər** | | | |
| Maliyyə lizinqi üzrə öhdəliklər | 14 | 13,140 | 21,553 |
| Digər öhdəliklər | 15 | 23,010 | - |
| Faiz xərcləri üzrə öhdəliklər | | 80 | - |
| **Cəmi cari öhdəliklər** | | **36,230** | **21,553** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Maliyyə lizinqi üzrə öhdəliklər | 14 | 5,794 | 15,862 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **5,794** | **15,862** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **42,024** | **37,415** |
| FONDUN XALİS AKTİVLƏRİ (2008-ci ildə AZN 7,597,376 məbləğində və 2007-ci ildə AZN 3,572,949 məbləğində sığorta ehtiyyatı daxil olmaqla) | | **11,170,325** | **3,572,949** |

**Rəhbərlik adından:**

**Azad Cavadov**
**İcraçı direktor**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

**Nərgiz Məmmədova**
**Baş mühasib**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

ƏSF — Əmanətlərin Sığortalanması Fondu * Azərbaycan Respublikası *

8-28-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Auditorların müstəqil rəyi 2-ci və 3-cü səhifələrdə verilmişdir.

## XALİS AKTİVLƏRDƏ DƏYİŞİKLİKLƏR HESABATI
## 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

| | Fondun xalis aktivləri |
|---|---|
| **1 yanvar 2007-ci il tarixinə sığorta ehtiyatları** | **-** |
| İl üzrə mənfəət | 3,572,949 |
| **31 dekabr 2007-ci il tarixinə sığorta ehtiyatları** | **3,572,949** |
| İl üzrə mənfəət | 7,597,376 |
| **31 dekabr 2008-ci il tarixinə sığorta ehtiyatları** | **11,170,325** |

**Rəhbərlik adından:**

**Azad Cavadov**
**İcraçı direktor**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

**Nərgiz Məmmədova**
**Baş mühasib**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

8-28-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Auditorların müstəqil rəyi 2-ci və 3-cü səhifələrdə verilir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HESABATI
## 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Azərbaycan Manatı ilə)*

| | 31 dekabr 2008-ci il tarixində başa çatmış il | 31 dekabr 2007-ci il tarixində başa çatmış 6 ay |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Üzv banklardan yığılmış təqvim haqları | 7,501,926 | 1,567,643 |
| Üzv banklardan yığılmış üzvlük haqları | 10,000 | 370,000 |
| Alınmış dəbbə pulları | 3,833 | 759 |
| Digər əməliyyat xərcləri | (441,834) | (127,161) |
| Ödənilmiş faiz xərcləri | (5,167) | (2,505) |
| Alınmış faiz gəlirləri | 138,869 | - |
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | **7,207,627** | **1,808,736** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Alınmış əsas vəsaitlər | (4,908) | (14,193) |
| Alınmış qeyri-maddi aktivlər | - | (1,250) |
| Ödəniş tarixinədək saxlanılan investisiya qiymətli kağızlarının alınması (diskont dəyərində) | (7,385,544) | (1,723,461) |
| Ödəniş tarixinədək saxlanılan investisiya qiymətli kağızlarının ödənilməsi (nominal dəyərlə) | 1,723,462 | - |
| Fond birjasında aparılan əməliyyatlar üzrə daxilolmalar | 122,516 | - |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri** | **(5,544,474)** | **(1,738,904)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | |
| Maliyyə lizinqi üzrə ödənişlər | (18,413) | (15,207) |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilmiş xalis pul vəsaitləri** | **(18,413)** | **(15,207)** |
| PUL VƏ PUL VƏSAITLƏRİ ÜZRƏ XALİS ARTIM | 1,644,740 | 54,625 |
| PUL VƏ PUL VƏSAITLƏRİ, *ilin əvvəli üçün* | 54,625 | - |
| PUL VƏ PUL VƏSAITLƏRİ, *ilin sonu üçün* | **1,699,365** | **54,625** |

**Rəhbərlik adından:**

**Azad Cavadov**
**İcraçı direktor**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

**Nərgiz Məmmədova**
**Baş mühasib**

12 mart 2009-cu il
Bakı, Azərbaycan Respublikası

8-28-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir. Auditorların müstəqil rəyi 2-ci və 3-cü səhifələrdə verilir.